Azərbaycan.- 2022.- 11 dekabr.- S.12.

# Ulu Öndər həyatımı necə dəyişdi

Ulu Öndər Heydər Əliyev 50 il bundan qabaq hər qış yeşiyə alma vurmaqdan əlləri donub göyərən məktəblinin həyatını onu görmədən və tanımadan necə dəyişdi?.. Bu əhvalat ən maraqlı və unudulmaz xatirə kimi yaddaşımın dərinliklərinə hopub. İndi o uzaq keçmişə xəyalən səyahət edəndə anlayıram ki, bu, ən qiymətli və ən gözəl uşaqlıq xatirələrimdən biridir.

İnsan arzularla yaşayır, boy atıb böyüyür. Uzun illər mənim də ən böyük arzum Rusiyaya əvvəl alma satmağa getmək, sonra isə Moskvada oxumaq olub. Babam isə deyərdi ki, rus dilini bilməsən, Samurdan o yana keçməyin mümkün deyil. Amma Heydər Əliyev rus dilini bilməyən minlərlə azərbaycanlı gənc üçün düz Moskvaya kimi bütün sərhədləri qaldırdı və ən nüfuzlu ali məktəblərin qapılarını onların üzünə taybatay açdı.

Söhbətin nədən getdiyini anlatmaq üçün gərək keçmişə, arzularımın çiçəklədiyi məkana qayıdım. Ara-sıra qışda atam Rusiyaya alma satmağa gedər, 70-80 yeşik almadan 5-6 min manat pul çıxarıb geri qayıdardı. Biz də onun dəri kürkünün dərin ciblərinin dəliklərindən astarın içinə düşən ovuc-ovuc qəpikləri çıxarıb saymaqdan ləzzət alardıq.

Orta məktəbi fərqlənmə attestatı ilə bitirib, Bakı Energetika Texnikumuna imtahansız qəbul oldum. Alma satmağa gedə bilmədim. Əvəzində arzularım bir qədər çoxaldı. İlk dəfə Bakıda dəblə ayaqlaşmaq istəyəndə "aeroport şapka" ilə balağı trapes şalvar aldım. Geyib gedirdim kəndə və elə sanırdım ki, Xucbalada bərk gedən üç kişidən biri də mənəm. İllər keçdikcə gələcəyimi daha fərqli düşünür, anlayırdım ki, tək trapes şalvar geyməklə, alma satmaqla iş bitmir, gərək daha mükəmməl arzuların ətəyindən yapışasan.

Bakıda texnikumun yataqxanasında yaşayırdıq. İkinci kursdan Paşa adlı bir tələbə ilə dostlaşdıq, ikimiz də əlaçı idik. Belə qərara gəldik ki, texnikumu qırmızı diplomla bitirib, Moskva Energetika İnstitutuna daxil olaq. Arzulayırdıq ki, oranı da əla qiymətlərlə başa vuraq və bizi Drezden Texniki Universitetinin aspiranturasına oxumağa göndərsinlər. Ona görə də durmadan oxumağa, alı məktəbə hazırlaşmağa başladıq.

Qəbul imtahanlarına beş-altı ay qalmışdı. Yataqxanada hamı bilirdi ki oxumağa hara gedəcəyik. Bir dəfə axşam çay süfrəsində bizi məzəyə tutdular ki, rus dilində kəlmə kəsə bilmirsiz, bəs Moskvada necə oxuyacaqsınız? İkimiz də qəfil sillədən çaşan adamlar kimi deməyə söz tapmadıq... Bizə hətta sataşırdılar ki, oxumayın, onsuz da heç sənədlərinizi də ali məktəbə verə bilməyəcəksiniz. Daha da dilxor olduq. Bir çıxış yolu tapmaq da qeyri-mümkün idi.

Energetika İnstitutuna daxil olmağımız bizə aya, ulduzlara səyahət qədər ağlasığmaz gəlirdi. İki dost əməlli-başlı ruhdan düşsək də, bir neçə gündən sonra anladıq ki, oxumaqdan başqa yolumuz yoxdur. Ona görə də belə qərara gəldik ki, oxumağa davam etməli, ali məktəbə hazırlaşmalıyıq.

Bu minvalla bir neçə ay ümidsiz və çarəsiz halda oxuduq. Gözlənilmədən həyatımızı bayrama çevirən fantastik bir hadisə baş verdi. O zaman Heydər Əliyev Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin birinci katibi idi. O belə bir qərar verməşdi ki, rus dilini bilməyən, amma Azərbaycan dilində yüksək bal toplayan tələbələr təhsillərini davam etdirmək üçün keçmiş sovet ittifaqının ən güclü məktəblərinə göndəriləcəklər.

O vaxt gənc idik, sevinirdik, heç Heydər Əliyevi əməlli-başlı tanımırdıq da. Elə "Allah yolumuzu açdı" deyib sevinirdik. Amma illər keçdikdən sonra anlayırıq ki, Ulu Öndərin milli kadrları hazırlamaq ideyası olmasaydı, biz Moskvaya oxumağa gedə bilməzdik. Bəlkə də özüm oraya gedib alma satıb qayıda bilərdim, uşaqlarım da atamdan qalan kürkün ciblərindən qəpikləri tapıb sevinərdilər.

Biz - rus dilində kəlmə kəsə bilməyən uşaqlar Ulu Öndərin hesabına sovet ittifaqında ən güclü təhsil ocaqlarına daxil olduq, yüksək biliklərə yiyələndik. Fərqli mədəniyyətin və əxlaqın sahibi olduq. İllər sonra vətənə dönəndə "aeroport şapkadan" daha böyük arzularla yaşayan gənclərə çevrildik. Ulu Öndər minlərlə bizim kimi gəncin həyatında əvəzsiz rol oynadı. Onun oxutdurduğu gənclər geri döndülər, Vətənə xeyir verən mütəxəssislər kimi çalışdılar, yüksək vəzifələrə irəli çəkildilər.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***